

# Azərbaycanın iftixarlı oğlu

## Vüsal Əliyevin gənclərə örnək olan döyüş yolu

**44 günlük haqq savaşımızda Vətənin, millətin yolunda şüurlu surətdə canlarını fəda edən minlərlə qəhrəmanımız oldu. Son damla qanına qədər düşmənə qarşı döyüşüb xalqına qələbə sevincini yaşadan belə qeyrətli oğullardan biri də Cəlilabad rayonunun Rüstəm-abad kəndində dünyaya göz açan Vüsal Məhəmmədəli oğlu Əliyevdir. Bu Vətən sevdalısı göstərdiyi rəşadətlə 29 yaşında adını Azərbaycanın yeni, şanlı tarixinə yazdı. Və beləcə öz ömrü qısa olsa da, bizim üçün qoyub getdiyi mənəvi sərvətdə doğma Azərbaycana, onun hər qarış torpağına, daşına ilahi bir sevgi vardır.**

Məhz bu baxımından Vüsal qəlblərdə yaşamaqla, onun keçdiyi şərəfli həyat yolu zaman-zaman gələcək nəsillərə örnək göstəriləcək. Onun dövlət tərəfindən təltif edildiyi " Azərbaycan Bayrağı" ordeninə, "Vətən uğrunda" və digər medallarına da bir qayda olaraq həmişə fəxrlə baxarlar.

Vüsal Əliyevin əsgərlik yaşı çatanda ordu sıralarına böyük həvəslə yollanıb. Dediyi də belə olub:- Vətən bizim namusumuz, şərəfimizdir. Onun bir parça daşına belə dığalar sahib çıxa bilməz. Axı ermənilərin Qarabağımızın işğalı onu çox narahat edib. Nəyin bahasına olursa-olsun onu tezliklə işğaldan azad görmək Vüsalın əsas arzusuna dönüb. Başa düşüb ki, bu yolu yalnız Vətən qeyrətli oğlanlar gedə bilər. Xidmətə cəbhə bölgəsində başlayan Vüsal müqəddəs borcunu şərəflə yerinə yetirib, əsgərlərin və zabitlərin dərin hörmətini qazanıb. Həmçinin cəsurluğunu, cəsarətini, vətənpərvərliyini çətin təlimlərdə belə yüksək səviyyədə təsdiq edib.

Vüsal əsgərlikdən sonra düşməndən alacağı öcə görə heç cür evdə qərar tuta bilməyib. Buna görə həyatını hərbiyə bağlamağa qərar verib. 2014-cü ildə Dövlət Sərhəd Xidmətinə müraciət edən Vüsal Xudat Sərhəd Dəstəsinin 11-ci zastavasına təyinat alıb. 2015-ci ilin avqust ayında xidmət yerini Çevik Hərəkət Briqadasına dəyişib. Burada manqa komandiri olub. Eləcə sürücü-mexanik vəzifələrində özünü sınayıb. Ona verilən tapşırığa ürəklə yanaşması, nizam-intizamı, peşəkarlığı həmişə nümunə göstərilib. Cəsur, vətənpərvər oğul kimi tanınan Vüsal Əliyev 2016-cı ildən isə xidmətini kəşfiyyat bölüyündə davam etdirib.

İkinci Qarabağ müharibəsi başlanan gündən Vüsal kəşfiyyat bölüyünün tərkibində ön cəbhədə yağıya qarşı haqq savaşına girib. Düşmənə sarsıdıcı zərbələr endirib və neçə-neçə uğurlu əməliyyatın qalibi olub. Ən əsası Şuşanın azadlığı baxımından mühüm strateji əhəmiyyət kəsb edən Hadrut qəsəbəsinin işğalçılardan təmizlənməsi uğrunda xüsusi qəhrəmanlıq göstərib. 9 oktyabr isə onun son döyüş günü olub. Girdiyi ölüm-dirim savaşında dığaların onlarla canlı qüvvəsini, hərbi texnikasını məhv etməklə özü də şəhadətə qovuşub.

**Zəfər ORUCOĞLU**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**